# Turizm potensialımız Səudiyyədə təqdim olundu

**Azərbaycanda fəaliyyət göstərən "Zakher Travel" turizm şirkəti Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində təşkil olunan "STM 2025" İkinci Beynəlxalq Turizm Sərgisində ölkəmizi təmsil edib.**



Sərgidə Azərbaycanın turizm imkanları, gəzməli-görməli məkanları, milli mətbəxi, müxtəlif növ turizm marşrutları və tur paketlər sərginin ziyarətçilərinə təqdim olunub.

Sayca ikinci dəfə keçirilən bu sərgidə 35 ölkədən 185 iştirakçı öz ölkələrini və xidmətlərini nümayiş etdirir.

Sərginin açılış günündə ölkəmizin Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayev və diplomatik korpusun əməkdaşları Azərbaycan pavilyonunu ziyarət etmiş, iştirakçılarla və sərginin ziyarətçi turizm şirkətləri ilə həmsöhbət olmuşlar.

Azərbaycan.- 2025.- 12 fevral (№31).- S.11.